## *İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi*

*Qurumun adı* "AZƏRBAYCAN DƏMİR YOLLARI" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

*Qeydiyyata alındığı tarix* 08.08.1995

*Əvvəlki dövlət qeydiyyat №* 171

*Dövlət qeydiyyat № (VÖEN)* 9900007721

*Təşkilati-hüquqi forması* Qapalı səhmdar cəmiyyəti

*Sahibkarlıq subyektinin meyarı* İri sahibkar

*Maliyyə ili* 1 yanvar-31 dekabr

*Hüquqi ünvanı* AZ1010, BAKI ŞƏHƏRİ NƏSİMİ RAYONU, DİLARƏ ƏLİYEVA, ev 230

*Nizamnamə kapitalının miqdarı (ödənilmiş)* 1,996,077,950.00 manat

*Çıxarışın verildiyi tarix və №* 21.07.2025, 3-21-2-2-1/2-52143/2025

Cəfərova L.T.

***İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi***

*Qurumun adı* "AZƏRBAYCAN DƏMİR YOLLARI" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

*Dövlət qeydiyyat № (VÖEN)* 9900007721

*Təsisçilər və nizamnamə kapitalında mayalarının miqdarı*

"AZƏRBAYCAN NƏQLİYYAT VƏ KOMMUNİKASİYA HOLDİNQİ (AZCON)" PUBLİK HÜQUQİ ŞƏXSİ - 100 %

*Müşahidə şurasının üzvləri (əvvəlki)* BABAYEV CƏFƏR ZAUR OĞLU, NƏBİYEV RƏŞAD NƏBİ OĞLU, HÜSEYNOV EMİN ZAMİN OĞLU, ƏLİXANOV RUSLAN ŞƏRAFƏDDİN OĞLU, MURSAQULOV AZƏR İSMAYIL OĞLU

*Müşahidə şurasının üzvləri (hazırki)* BABAYEV ŞAHİN TOFİQ OĞLU, MİRZƏZADƏ VÜQAR YAŞAR OĞLU, TEKELI TAYLAN, NƏBİYEV RƏŞAD NƏBİ OĞLU

*Çıxarışın verildiyi tarix və №* 21.07.2025, 3-21-2-2-1/2-52143/2025

Cəfərova L.T.

***İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi***

*Qurumun adı* "AZƏRBAYCAN DƏMİR YOLLARI" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

*Dövlət qeydiyyat № (VÖEN)* 9900007721

*Qanuni təmsilçi* RÜSTƏMOV RÖVŞƏN MÜRVƏT OĞLU

*Çıxarışın verildiyi tarix və №* 21.07.2025, 3-21-2-2-1/2-52143/2025

Cəfərova L.T.

| | |
|---|---|
| **"DÖVLƏT QEYDİYYATINA ALINMIŞDIR"** | **"TƏSDİQ EDİLMİŞDİR"** |
| **Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş idarəsi Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən** | **"Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin Müşahidə Şurası tərəfindən** |
| **Qeydiyyat № ________________** | **Protokol (qərar) № 01/25** |
| | **Müşahidə Şurasının sədri** |
| **İdarə rəisi: __________** | **Rəşad Nəbiyev:__________** |

"Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxs

# "AZƏRBAYCAN DƏMİR YOLLARI" QAPALI SƏHMDAR CƏMİYYƏTİNİN

# NİZAMNAMƏSİ

## "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin

## NİZAMNAMƏSİ

### 1. Ümumi müddəalar

1.1. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra – Cəmiyyət) "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamına əsasən Azərbaycan Dövlət Dəmir Yolunun yenidən təşkili yolu ilə yaradılmış, habelə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yenidən təşkili haqqında" Azərbaycan Respublikasının Prezidentinin 2025-ci il 25 fevral tarixli 342 nömrəli Fərmanına əsasən "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin ona qoşulması formasında yenidən təşkil edilmişdir. Cəmiyyət Azərbaycan Dövlət Dəmir Yolunun və "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin hüquqi varisidir.

1.2. Cəmiyyət dəmiryol nəqliyyatı ilə yük və sərnişin daşımalarının və bu nəqliyyat növü üzrə digər xidmətlərin göstərilməsini təşkil və təmin edən, ümumi istifadəli dəmiryol nəqliyyatının infrastrukturunun saxlanılmasını, fəaliyyətinin təşkilini və hərəkətinin idarə edilməsini həyata keçirən, Xəzər dənizinin Bakı şəhərinə aid olan Cəmiyyət üçün ayrılmış liman akvatoriyasında və ərazisində (bundan sonra – liman) beynəlxalq standartlara uyğun dayanıqlı liman fəaliyyətinin təşkilini və idarə edilməsini həyata keçirən, dəmiryol və liman xidmətləri (bundan sonra - müvafiq sahə) göstərən kommersiya hüquqi şəxsidir.

1.3. Cəmiyyət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin (bundan sonra - AZCON) Nizamnaməsini, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarını, AZCON-un qərar və göstərişlərini və bu Nizamnaməni rəhbər tutur.

1.4. Cəmiyyətin aparatı, idarə, filial və nümayəndəlikləri, törəmə və asılı təsərrüfat cəmiyyətləri Cəmiyyətin strukturunu təşkil edir.

1.5. Cəmiyyət səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxsdir.

1.6. Cəmiyyətin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı və "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Gerbinin təsviri həkk olunmuş möhürü, habelə müvafiq ştampları, blankları, bayraq, loqotip (emblem), əmtəə nişanı və digər fərqləndirici nişanları, habelə işçilərinin xüsusi xidməti geyim forması vardır.

1.7. Cəmiyyətin normativ hüquqi aktlara və Nizamnaməsinə uyğun olaraq əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Cəmiyyət məhkəmədə, həmçinin arbitrajda iddiaçı və ya cavabdeh qismində çıxış etmək hüququna malikdir.

1.8. Təsisçi Cəmiyyətin öhdəlikləri üçün cavabdeh deyildir və Cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün ona mənsub səhmlərin dəyəri həddində risk daşıyır.

1.9. Cəmiyyət təsisçinin üzərinə götürdüyü hər hansı öhdəliklərinə görə cavabdeh deyildir.

1.10. Cəmiyyətin rəsmi adı aşağıdakı kimidir:

1.10.1. tam halda – "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti;

1.10.2. qısaldılmış halda – "ADY" QSC;

1.10.3. ingilis dilində tam adı – "Azerbaijan Railways" Closed Joint-Stock Company;

1.10.4. ingilis dilində qısaldılmış adı – "ADY" CJSC.

1.11. Cəmiyyətin hüquqi ünvanı: Azərbaycan Respublikası, Bakı şəhəri, AZ 1010, Dilarə Əliyeva küçəsi, 230.

## 2. Cəmiyyətin fəaliyyət istiqamətləri

2.1. Cəmiyyətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə dövlət siyasətinin formalaşmasında və həyata keçirilməsində iştirak etmək;

2.1.2. dəmiryol nəqliyyatı vasitəsilə yüklərin, sərnişinlərin, poçtun və baqajın daşınmasının, həmçinin liman əməliyyatlarının səmərəli şəkildə təşkilini təmin etmək, bu sahələrin inkişafı, genişləndirilməsi və şaxələndirilməsi üzrə tədbirlər həyata keçirmək;

2.1.3. dəmiryol nəqliyyatının və limanın infrastruktur obyektlərinin, o cümlədən dəmiryol stansiyalarının (vağzalların, dayanacaqların), xətlərinin, lokomotiv və vaqon təsərrüfatı depolarının, süni qurğuların (tunellərin, körpülərin) və digər daimi qurğuların, avadanlıqların, mühəndis kommunikasiyalarının, anbarların, binaların, istehsalat, inzibati və digər obyektlərin tikintisi, yenidən qurulması, bərpası və təmiri işlərini təşkil etmək;

2.1.4. aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, təkliflərin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

2.1.5. fəaliyyət istiqamətlərinə uyğun materialları və avadanlıqları istehsal etmək və satmaq;

2.1.6. normativ hüquqi aktlarla və bu Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

## 3. Cəmiyyətin vəzifələri və hüquqları

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Cəmiyyətin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahənin inkişafı ilə bağlı qəbul edilmiş normativ hüquqi aktların, inkişaf konsepsiyaları və məqsədli proqramların həyata keçirilməsində iştirak etmək;

3.1.2. dəmiryol nəqliyyatı xidmətlərinin istifadəçilərinə yüklərin, sərnişinlərin, poçtun və baqajın daşınması xidmətlərinin, habelə liman istifadəçilərinə liman xidmətlərinin göstərilməsini təmin etmək, bununla əlaqədar stansiya, yük, o cümlədən yükaşırma, liman qurğularının istismarı, dəmiryol nəqliyyatı və limanda göstərilən digər əməliyyatlar ilə bağlı xidmətlər göstərmək, həmin xidmətlərin genişləndirilməsi və şaxələndirilməsi üçün tədbirlər görmək;

3.1.3. müvafiq sahədə hərəkətin, dəmiryol nəqliyyatı və liman infrastrukturunun təhlükəsiz idarə olunmasını həyata keçirmək;

3.1.4. müvafiq sahədə qatarların tərtib olunmasını, lokomotiv dartı xidmətlərinin göstərilməsini təmin etmək;

3.1.5. dəmiryol nəqliyyatı vasitələri, o cümlədən hərəkət tərkiblərinin istismarından irəli gələn texniki xidmət göstərmək, planlı və cari təmiri həyata keçmək, eləcə də vaqon və konteynerlərin yuyulması işlərini aparmaq;

3.1.6. qeyri-ümumi istifadəli dəmir yollarının, ümumi istifadəli dəmiryoluna çıxış yollarının tikintisi və yenidən qurulması üçün təqdim edilən layihələrə baxılmasını və müəyyən edilmiş qaydada texniki şərtlərin verilməsini və ümumi istifadəli dəmiryol xətlərinə birləşdirilməsinə razılıq verilməsini həyata keçirmək;

3.1.7. dəmir yolunun təhkim zolağında və xüsusi mühafizə zonasında yerləşən nəqliyyat təyinatlı torpaq sahələrinin qorunmasını təmin etmək və onların qanunvericiliklə nəzərdə tutulmuş qaydada istifadəsinə dair AZCON-la razılaşdırmaqla qərarlar qəbul etmək;

3.1.8. ümumi istifadəli dəmir yolunda vahid texniki normativləri və tələbləri müəyyən etmək, tətbiqini təmin etmək;

3.1.9. müvafiq sahədə qəza-xilasetmə xidmətlərinin göstərilməsində iştirak etmək;

3.1.10. dəmiryol hərəkət tərkiblərinə yanacaqdoldurma xidmətini göstərmək, yanacaq-sürtgü və yanacaq-enerji ehtiyatlarının formalaşdırılmasını həyata keçirmək;

3.1.11. normativ hüquqi aktlarla müəyyən edilmiş hallarda müvafiq sahədə göstərilən xidmətlər üzrə tarif və yığımları müəyyən etmək, habelə həmin tarif və yığımlara güzəştlər tətbiq etmək;

3.1.12. müvafiq sahədə nəqliyyat-ekspedisiya və digər logistika xidmətlərini göstərmək;

3.1.13. müvafiq sahədə rabitə, informasiya, marketinq, servis və digər xidmətləri göstərmək;

3.1.14. dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən vəsiqənin verilməsini, o cümlədən dəyişdirilməsi və reyestrinin aparılmasını, habelə bununla bağlı ixtisas imtahanının təşkili və keçirilməsini təmin etmək;

3.1.15. gəmilərin limana giriş və çıxış cədvəlini tərtib etmək;

3.1.16. Cəmiyyətin maddi-texniki bazasını gücləndirmək, mövcud istehsal gücündən səmərəli istifadə etmək, eləcə də yeni texnologiyaları, texniki vasitələri tətbiq etməklə ətraf mühitə zərərli təsirin minimuma endirilməsi, ətraf mühitin qorunması və bərpasına yönəldilmiş tədbirlər görmək;

3.1.17. müvafiq sahədə infrastrukturu inkişaf etdirmək, eləcə də bu məqsədlə qabaqcıl təcrübəni öyrənmək, beynəlxalq əməkdaşlığı həyata keçirmək;

3.1.18. müvafiq sahədə qurğu və avadanlıqların texniki təhlükəsizliyinin təmin olunması üçün tədbirlər görmək;

3.1.19. Cəmiyyətin, paylarının (səhmlərinin) nəzarət zərfinə malik olduğu (bundan sonra - təsisçisi (iştirakçısı) olduğu) hüquqi şəxslərin, habelə idarə, filial və nümayəndəliklərinin inkişafına dair uzunmüddətli proqnozlar, məqsədli kompleks istehsal, elmi-texniki, iqtisadi və sosial proqramlar hazırlamaq, dəmiryol nəqliyyatı, ticarət gəmiçiliyi və dəniz limanları sahəsində qəbul edilmiş dövlət proqramları da daxil olmaqla onların icrasını təmin etmək;

3.1.20. müvafiq sahədə qəza hallarının maksimum azaldılmasını, habelə sərnişinlərin təhlükəsizliyinin və onlara göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsini təmin etmək;

3.1.21. Cəmiyyətin mülkiyyətində, icarəsində və istifadəsində olan əmlakını yanğın təhlükəsizliyi sistemləri ilə təmin etmək, habelə onların mühafizəsini təşkil etmək;

3.1.22. Cəmiyyətin infrastrukturunun etibarlı mühafizəsini təmin etmək üçün mühafizə xidmətlərini və daxili nəzarət sistemlərini təşkil etmək;

3.1.23. Cəmiyyətin, təsisçisi (iştirakçısı) olduğu hüquqi şəxslərin, habelə idarə, filial və nümayəndəliklərinin iqtisadi və maliyyə vəziyyətini təhlil etmək və onların fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi məqsədilə tədbirlər görmək;

3.1.24. Cəmiyyətin işçilərinin sosial müdafiəsinin və əmək şəraitinin yaxşılaşdırılması, əməyin mühafizəsi məqsədi ilə tədbirlər görmək;

3.1.25. müvafiq sahədə kadrlarla işin təşkili və aparılması, personalın bilik səviyyəsinin (o cümlədən, texniki istismar və yanğın təhlükəsizliyi qaydaları sahəsində) yoxlanılması ilə bağlı tədbirlər görmək;

3.1.26. fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görmək;

3.1.27. Cəmiyyətin fəaliyyətinin və inkişafının təmin edilməsində müasir idarəetmə sistemlərini və rabitə xidmətlərini etibarlı mühafizə vasitələri ilə təchiz etməklə təşkil etmək;

3.1.28. müvafiq sahədə infrastrukturun modernləşdirilməsi və genişləndirilməsi üçün uzunmüddətli strateji planlaşdırmanı həyata keçirmək məqsədilə AZCON-a təkliflər vermək, o cümlədən istismar olunan obyektlərin təmiri və yenilənməsi, enerji sisteminin etibarlılığının artırılması ilə bağlı tədbirlər görmək;

3.1.29. müvafiq sahədə fəaliyyət istiqamətləri üzrə rəqəmsal inkişaf prosesini həyata keçirmək;

3.1.30. Cəmiyyətin fəaliyyət istiqamətləri üzrə riskləri müəyyənləşdirmək, qiymətləndirmək və idarə etmək, habelə sığortalanma siyasətinin optimallaşdırılması istiqamətində müvafiq tədbirlər görmək;

3.1.31. qanunla müəyyən edilmiş hallarda dənizdə batmış əmlakın çıxarılmasını və zərurət yarandıqda isə uzaqlaşdırılmasını və ya məhvini təmin etmək;

3.1.32. liman xidmətlərini, o cümlədən liman qurğularının istismarı, gəmilərin və gəmi avadanlıqlarının bərpası və təmiri, habelə yükaşırma xidmətlərini, həmçinin yedək əməliyyatları ilə bağlı xidmətlər göstərmək;

3.1.33. limana daxil olan bütün gəmilərə davamlı yanalma (yoladüşmə), limana giriş (limandan çıxış), içməli su təchizatı, yanacaq, agent və digər təchizat xidmətlərini göstərmək;

3.1.34. liman xidmətinin istifadəçilərinə sürətli, çevik və geniş çeşidli mühəndislik xidmətlərini (konteyner yoxlanılması, texniki dəstək, elektrik təchizatı, bərpa və təmir xidmətləri) göstərmək;

3.1.35. müvafiq sahədə intermodal və multimodal daşıma xidmətlərini təşkil etmək;

3.1.36. limanın hidrotexniki qurğu, avadanlıq və sistemlərini işlək vəziyyətdə saxlamaq, modernləşdirmək və inkişaf etdirmək;

3.1.37. gəmilərə göstərilən xidmətlərin çevikliyinin artırılması üçün zəruri tədbirlər görmək;

3.1.38. limanın yük aşırma qabiliyyətini genişləndirmək, yüklərin saxlanılmasını, çeşidlənməsini, qablaşdırılmasını, emalını və mühafizəsini təşkil etmək, bu məqsədlə zəruri infrastruktur qurmaq və inkişaf etdirmək;

3.1.39. limanda sərnişinlərə xidmətin yaxşılaşdırılması və dəniz turizminin genişləndirilməsi üçün sərnişin terminalını müasirləşdirmək;

3.1.40. limanın ərazisinə daxil olmuş yüklərin və nəqliyyat vasitələrinin idarə edilməsi məqsədilə limanı xüsusi avadanlıqlarla təchiz etmək;

3.1.41. liman akvatoriyasında gəmilərin hərəkətinin idarə edilməsində iştirak etmək;

3.1.42. limanda sərnişin və yük daşımaları xidmətlərini təkmilləşdirmək, bu məqsədlə zəruri infrastrukturu davamlı genişləndirmək;

3.1.43. müvafiq sahədə müqavilə əsasında ödənişli xidmətlər göstərmək;

3.1.44. Xəzər dənizinin akvatoriyasından istifadə etməklə tranzit, idxal və ixrac əməliyyatlarını əhatə edən kompleks logistik məhsulun təşkilini, tanıdılmasını, satışını və icrasını təmin etmək;

3.1.45. Cəmiyyətin fəaliyyətinin təmin edilməsi üçün normativ hüquqi aktlarla və bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

3.2. Cəmiyyət bu Nizamnamənin 3.1-ci bəndində göstərilən vəzifələri həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

3.2.1. Cəmiyyətin fəaliyyətinin inkişaf etdirilməsinə, effektivliyinin yüksəldilməsinə, maddi-texniki bazasının modernləşdirilməsinə xidmət edən investisiya fəaliyyətini AZCON-la razılaşdırmaqla həyata keçirmək;

3.2.2. müvafiq sahədə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;

3.2.3. müvafiq sahədə kadr potensialını inkişaf etdirmək, ixtisaslaşdırılmış ali, orta ixtisas və peşə təhsili müəssisələrini idarə etmək, onların təsis edilməsi ilə bağlı təkliflər vermək;

3.2.4. Cəmiyyətin maddi və qeyri-maddi aktivlərini idarə etmək və onların barəsində AZCON-la razılaşdırmaqla sərəncam vermək;

3.2.5. normativ hüquqi aktlara uyğun olaraq Azərbaycan Respublikasında və onun hüdudlarından kənarda daşınmaz əmlak, eləcə də daşınar əmlakın rəsmi dövlət reyestrlərində qeydiyyata alınan daşınar əşyaları AZCON-la razılaşdırmaqla, almaq və icarəyə götürmək;

3.2.6. Cəmiyyətə məxsus nəqliyyat vasitələrini istismar etmək;

3.2.7. fəaliyyət istiqamətlərinə uyğun materialların və avadanlıqların istehsalı və satışını həyata keçirmək;

3.2.8. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.9. müqavilə əsasında müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.10. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla və xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.11. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.12. fəaliyyət istiqamətlərinə uyğun olaraq konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək, bu cür tədbirlərdə iştirak etmək;

3.2.13. müvafiq sahədə aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, təkliflərin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.2.14. Cəmiyyətin fəaliyyətinin həyata keçirilməsi üçün normativ hüquqi aktlarla və bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 4. Cəmiyyətin nizamnamə kapitalı, əmlakı və maliyyə fəaliyyətinin əsasları

4.1. Cəmiyyətin nizamnamə kapitalı 1 996.077.950 (bir milyard doqquz yüz doxsan altı milyon yetmiş yeddi min doqquz yüz əlli) manat məbləğində olmaqla, onun səhmlərinin nominal dəyərindən təşkil olunur və nominal dəyəri 2 (iki) manat olan 998.038.975 (doqquz yüz doxsan səkkiz milyon otuz səkkiz min doqquz yüz yetmiş beş) ədəd adi səhmdən ibarətdir.

4.2. AZCON Cəmiyyətin yeganə səhmdarıdır və Azərbaycan Respublikasının adından çıxış edir.

4.3. Cəmiyyətin nizamnamə kapitalı bu Nizamnaməyə uyğun olaraq Cəmiyyətin mülkiyyətinə verilmiş və qanunla müəyyən edilmiş qaydada qiymətləndirilmiş aktivlərin dəyərindən təşkil olunur. Cəmiyyətin nizamnamə kapitalı puldan, qiymətli kağızlardan, başqa əmlakdan, əmlak hüquqlarından və ya pul dəyəri olan digər hüquqlardan ibarət ola bilər.

4.4. Cəmiyyətin əmlakı nizamnamə kapitalından, təsisçinin verdiyi digər əmlakdan, puldan, qiymətli kağızlardan, əmlak və qeyri-əmlak hüquqlarından və ya pul dəyəri olan digər hüquqlardan, habelə fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan olunmayan digər vəsaitdən formalaşır.

4.5. Cəmiyyətin əmlakının dəyəri onun balansında göstərilir.

4.6. Cəmiyyətin nizamnamə kapitalının artırılması və ya azaldılması Azərbaycan Respublikasının Mülki Məcəlləsində və bu Nizamnamədə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

4.7. Cəmiyyətin fəaliyyətindən, o cümlədən əmlakının idarəedilməsindən əldə olunan gəlirlər üzrə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 yanvar tarixli 286 nömrəli Fərmanına uyğun olaraq sərəncam verilir.

## 5. Cəmiyyətin ali idarəetmə orqanı

5.1. Cəmiyyət öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir. AZCON Cəmiyyətin korporativ idarəetmə standartlarını təsdiq edir və onun fəaliyyətinin həmin standartlara uyğun təşkilinə nəzarət edir.

5.2. Cəmiyyətin ali idarəetmə orqanı onun Ümumi Yığıncağıdır (bundan sonra – Ümumi Yığıncaq). Cəmiyyətin idarəetmə orqanları Müşahidə Şurası və kollegial icra orqanı – İdarə Heyətidir.

5.3. Ümumi Yığıncağın səlahiyyətlərinə aşağıdakı məsələlər aid edilir:

5.3.1. Azərbaycan Respublikasının Prezidentinə:

5.3.1.1.Cəmiyyətin yenidən təşkili və ləğvi;

5.3.1.2.Cəmiyyətin icra orqanının rəhbərinin və üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi.

5.3.2. AZCON–a:

5.3.2.1. bu Nizamnamənin 5.3.1-ci yarımbəndində qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq ali idarəetmə orqanının müstəsna səlahiyyətinə aid edilmiş məsələlərin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirilməsi;

5.3.2.2. Azərbaycan Respublikasının normativ hüquqi aktları, eləcə də Cəmiyyətin nizamnaməsi ilə Ümumi Yığıncağa həvalə edilən digər səlahiyyətlərin həyata keçirilməsi.

5.4. Ümumi Yığıncaq növbəti və növbədənkənar ola bilər. Növbəti Ümumi Yığıncaq ildə bir dəfə çağırılır. Növbədənkənar Ümumi Yığıncaq icra orqanının və Müşahidə Şurasının təşəbbüsü, habelə AZCON-un tələbi ilə çağırılır.

5.5. Ümumi Yığıncağın qərarları iştirakçıların sadə səs çoxluğu ilə qəbul edilir və yazılı surətdə rəsmiləşdirilir.

## 6. Cəmiyyətin Müşahidə Şurası

6.1. Cəmiyyətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti kollegial idarəetmə orqanı olan Cəmiyyətin Müşahidə Şurası (bundan sonra – Şura) həyata keçirir. Şuranın tərkibi 5 (beş) üzvdən – Şuranın sədri və digər 4 üzvdən ibarətdir. Şuranın sədri və üzvləri Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla AZCON tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir. Cəmiyyətin İdarə Heyətinin sədri və üzvləri (bundan sonra – İdarə Heyəti) Şuraya üzv təyin edilə bilməzlər.

6.2. Şura üzvlərinin səlahiyyət müddəti 3 (üç) ildir və onlar növbəti müddətlərə yenidən təyin edilə bilərlər.

6.3. Şura ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərir.

6.4. Şura öz fəaliyyətinin nəticələrinə görə Ümumi Yığıncaq qarşısında cavabdehlik daşıyır.

6.5. Şuranın səlahiyyətləri aşağıdakılardır:

6.5.1. Cəmiyyətin Ümumi Yığıncağının qərarlarının icrasına və Cəmiyyətin fəaliyyətinin normativ hüquqi aktların tələblərinə uyğun təşkilinə nəzarət etmək;

6.5.2. Cəmiyyətin nizamnaməsinə dəyişiklik edilməsi, nizamnamə kapitalının artırılması və ya azaldılması haqqında Cəmiyyətin Ümumi Yığıncağına təkliflər vermək;

6.5.3. Cəmiyyətin idarə, filial və nümayəndəliklərinin, habelə Cəmiyyət tərəfindən hüquqi şəxslərin yaradılması, eləcə də onların idarəetmə orqanlarının üzvlərinin (rəhbərlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi ilə bağlı Ümumi Yığıncağa təkliflər vermək;

6.5.4. Cəmiyyətin inkişaf strategiyasına, biznes planına və strateji inkişaf planına dair Ümumi Yığıncağa təkliflər vermək;

6.5.5. Cəmiyyətin daxili audit bölməsini təşkil etmək və onun əsasnaməsini Ümumi Yığıncaqla razılaşdırmaqla təsdiq etmək, əməkdaşlarını vəzifəyə təyin və vəzifədən azad etmək;

6.5.6. Cəmiyyətin mənfəətinin və zərərinin bölüşdürülməsi ilə bağlı sənədləri, həmçinin illik hesabatlarını və maliyyə hesabatlarını təsdiq edilməsi üçün Ümumi Yığıncağa təqdim etmək;

6.5.7. Cəmiyyətin əsas səmərəlilik göstəricilərinin müəyyən edilməsi ilə əlaqədar Ümumi Yığıncağa təkliflər vermək;

6.5.8. Cəmiyyətin İdarə Heyəti üzvlərinin fəaliyyətinə nəzarət etmək, onların fəaliyyətini yoxlamaq, habelə Ümumi Yığıncaqla razılaşdırmaqla, müəyyən etdiyi əsas fəaliyyət göstəriciləri əsasında qiymətləndirmək;

6.5.9. Cəmiyyətin icra orqanının fəaliyyəti ilə bağlı hesabatlar, arayışlar və izahatlar almaq;

6.5.10. Ümumi Yığıncağın razılığı ilə Cəmiyyətin idarə, filial və nümayəndəliklərinin, habelə təsisçisi (iştirakçısı) olduğu hüquqi şəxslərin strukturunu, işçilərinin say həddini, əmək haqqı sistemini və əməyin ödənişi fondunu, ştat cədvəlini təsdiq etmək;

6.5.11. Ümumi Yığıncaqla razılaşdırmaqla, Cəmiyyətin idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, habelə təsisçisi (iştirakçısı) olduğu hüquqi şəxslərin nizamnamələrini təsdiq etmək;

6.5.12. Məbləği 100.000.000 (yüz milyon) manatdan və ya onun xarici valyutada ekvivalentindən artıq olan əqdlərin (Cəmiyyətin xalis aktivlərinin 25 faizindən artıq olan (xüsusi əhəmiyyətli əqdlər), eləcə də aidiyyəti şəxslərlə bağlanması nəzərdə tutulan əqdlər istisna olmaqla) bağlanması barədə qərar qəbul etmək, habelə Cəmiyyətin xalis aktivlərinin 25 faizindən artıq məbləğdə olan əqdlərin (xüsusi əhəmiyyətli əqdlərin) və aidiyyəti şəxslə əqdlərin bağlanması barədə qərar qəbul edilməsi üçün Ümumi Yığıncağa müraciət etmək.

6.5.13. auditor yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair Ümumi Yığıncağın göstərişi əsasında tədbirlər görmək;

6.5.14. Cəmiyyətin maliyyə planlaşdırılmasını, illik büdcəsini (büdcə proqnozlarını), strukturunu, işçilərinin say həddini, əmək haqqı sistemini və fondunu, ştat cədvəlini, gəlirlər və xərclər smetasını təsdiq edilməsi üçün Ümumi Yığıncağa təqdim etmək və icrasını təmin etmək;

6.5.15. Ümumi Yığıncaqla razılaşdırmaqla, Cəmiyyətin əməkdaşlarının mükafatlandırılması qaydalarını təsdiq etmək;

6.5.16. fəaliyyətinin səmərəliliyini artırmaq üçün etika, strateji planlaşdırma, risklərin idarə edilməsi və digər yardımçı komitələr yaratmaq və öz səlahiyyətlərinin bir hissəsini onlara həvalə etmək;

6.5.17. bu Nizamnamənin, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin yaradılması və bununla əlaqədar bəzi məsələlərin həll edilməsi haqqında" 2024-cü il 7 noyabr tarixli 226 nömrəli Fərmanının və 2025-ci il 15 yanvar tarixli 286 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin Nizamnaməsi"nin tələbləri nəzərə alınmaqla, müvafiq sahədə münasibətləri tənzimləyən normativ hüquqi aktlarla Şuranın səlahiyyətlərinə aid edilmiş digər məsələləri həll etmək.

6.6. Şuranın sədri:

6.6.1. Şuranın işini təşkil edir və onun fəaliyyətinə rəhbərlik edir, habelə özünün və Cəmiyyətin İdarə Heyətinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

6.6.2. Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir, iclasları çağırır və iclaslara sədrlik edir;

6.6.3. öz təşəbbüsü ilə, habelə Şuranın hər hansı digər üzvünün və ya İdarə Heyətinin müraciəti əsasında digər şəxsləri Şuranın iclasında iştirak etməyə dəvət edir;

6.6.4.Şuranın üzvü olmayan əməkdaşlar sırasından Şuranın katibini təyin edir.

6.7. Şuranın üzvləri:

6.7.1. Şuranın səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;

6.7.2. Şuranın iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulan materiallarla əvvəlcədən tanış olurlar;

6.7.3. Şurada qəbul ediləcək qərarlara dair fikir bildirirlər və qərarların qəbul edilməsində səs verirlər;

6.7.4. Şuranın səlahiyyətlərinə aid məsələlərə Şuranın iclaslarında baxmaq barədə təklif verirlər;

6.7.5. Şuranın qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

6.8. Şuranın katibi:

6.8.1. Şuranın iclaslarını təşkil edir;

6.8.2. bu Nizamnamənin 6.12-ci bəndində nəzərdə tutulan vəzifəni yerinə yetirir;

6.8.3. Şuranın iclaslarının protokollarını tərtib edir və imzalanmaq üçün Şura üzvlərinə təqdim edir;

6.8.4. Şuranın qərarlarının layihələrini hazırlayır, baxılmaq və imzalanmaq üçün Şuranın sədrinə təqdim edir;

6.8.5. Şuranın sədrinə hesabat verir;

6.8.6. Şuranın qəbul etdiyi qərarların aidiyyəti üzrə göndərilməsini təmin edir.

6.9. Şura sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərini Şuranın üzvləri arasından seçdiyi üzv icra edir.

6.10. Şuranın üzvləri adlarına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsi ilə müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

6.11. Şuranın sədri 3 (üç) ayda bir dəfədən az olmayaraq Şuranın iclasını çağırır və iclaslara sədrlik edir. Şuranın iclaslarının keçirilməsi təşəbbüsü ilə Ümumi Yığıncaq, Şuranın üzvü və ya Cəmiyyətin sədri çıxış edir.

6.12. Şuranın üzvlərinə, habelə Şuranın iclaslarına dəvət olunan şəxslərə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

6.13. Şuranın iclasları onun üzvlərinin əyani (bilavasitə) iştirakı ilə, informasiya texnologiyalarından istifadə etməklə distant, habelə qarışıq formada və ya qiyabi (iclas keçirilmədən müvafiq olaraq qərar vermə (qərarı imzalama) keçirilə bilər. Şuranın iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Şuranın iclasında hər üzvün bir səsi olmaqla, qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul

edilir. Şurada səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

6.14. Şuranın iclasının nəticəsi Şura üzvlərinin və katibinin imzaladıqları protokolda əks olunmaqla rəsmiləşdirilir. Protokolda iclasın yeri, vaxtı, keçirilmə forması, iştirak etmiş üzvlər barədə məlumat, iclasın gündəliyi, üzvlərin gündəliyə daxil edilmiş məsələlərə dair çıxışlarının xülasəsi, səsvermənin nəticələri və qəbul edilmiş qərarlar əks olunur. Şuranın katibi Şuranın iclasında iştirak edə bilmədikdə, Şuranın sədri onu əvəz edəcək şəxsi təyin edir. Şuranın protokolunun surəti Cəmiyyətin icra orqanına göndərilir.

6.15. Qəbul olunmuş qərarın əleyhinə səs vermiş Şuranın üzvü öz mövqeyi barədə 5 (beş) iş günü ərzində yazılı rəy təqdim etməli və həmin rəy protokola əlavə olunmalıdır.

6.16. İclasın gündəliyinə Şuranın hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

## 7. Cəmiyyətin icra oqranı

7.1. Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi onun kollegial icra orqanı olan İdarə Heyəti həyata keçirir. İdarə Heyəti Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən 6 (altı) üzvdən – Cəmiyyətin sədrindən və onun 5 (beş) müavinindən ibarətdir. İdarə Heyətinin fəaliyyətinə Cəmiyyətin sədri rəhbərlik edir.

7.2. İdarə Heyətinin vəzifələri aşağıdakılardır:

7.2.1. Cəmiyyətin fəaliyyətini təşkil etmək;

7.2.2. bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi məqsədilə Şuraya təkliflər vermək və sənədlər (o cümlədən Cəmiyyətin illik və rüblük hesabatlarını, habelə strateji planlarının icrası barədə hesabatları) təqdim etmək;

7.2.3. Cəmiyyətin Nizamnaməsinə, habelə nizamnamə kapitalına dəyişikliklər edilməsi barədə Ümumi Yığıncağa təkliflər verilməsi üçün Şuraya müraciət etmək;

7.2.4. Cəmiyyətin inkişaf və biznes planlarının formalaşdırılması barədə Şuraya təkliflər vermək;

7.2.5. Ümumi Yığıncağın və Şuranın qərarlarının vaxtında və lazımi qaydada icrasını təmin etmək;

7.2.6. Cəmiyyətin strukturuna daxil olan qurumların, təsisçisi (iştirakçısı) olduğu hüquqi şəxslərin fəaliyyətinə dair illik iş planlarını və onların icra vəziyyətinə dair hesabatları təsdiq etmək;

7.2.7. Cəmiyyətin strukturuna daxil olan qurumların, təsisçisi (iştirakçısı) olduğu hüquqi şəxslərin istehsal və təsərrüfat funksiyalarının tam və ya qismən mərkəzləşdirilməsinə dair qərar qəbul etmək;

7.2.8. Cəmiyyətin strukturuna daxil olan qurumlar, təsisçisi (iştirakçısı) olduğu hüquqi şəxslər arasında mübahisələrin həlli üçün tədbirlər görmək;

7.2.9. Ümumi Yığıncaq tərəfindən verilən qərarlara uyğun olaraq Cəmiyyətin xarici dövlətlərin aidiyyəti qurumları ilə birgə işinə və xarici iqtisadi əlaqələrə aid bütün məsələlərə dair tədbirlər görmək;

7.2.10. Ümumi Yığıncaq tərəfindən Cəmiyyətin mərkəzləşdirilmiş fondlarının yaradılmasına və istifadəsi qaydalarına dair Şuraya təkliflər vermək;

7.2.11. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

7.2.12. Cəmiyyətin mənfəətinin və zərərinin bölüşdürülməsi ilə bağlı sənədləri, illik hesabatları və maliyyə hesabatlarını, investisiya layihələrini və onların icrasına dair hesabatları, eləcə də Cəmiyyətin inkişaf strategiyasının, strateji inkişaf planının və

biznes planının əsas göstəricilərinin icrasına dair hesabatı Ümumi Yığıncaq tərəfindən təsdiq edilməsi üçün Şuraya təqdim etmək;

7.2.13. Cəmiyyətin aparatının struktur bölmələrini yaratmaq və onların (daxili audit bölməsi istisna olmaqla) əsasnamələrini təsdiq etmək;

7.2.14. Cəmiyyətin inkişaf strategiyasının formalaşdırılması məqsədilə Şuraya təkliflər vermək;

7.2.15. bu Nizamnamə ilə Ümumi Yığıncağın, Şuranın və Cəmiyyətin sədrinin səlahiyyətlərinə aid edilməyən digər məsələləri həll etmək.

7.3. Cəmiyyətin sədri:

7.3.1. Cəmiyyətin işini təşkil edir və onun cari fəaliyyətinə rəhbərlik edir;

7.3.2. normativ hüquqi aktlara və bu Nizamnaməyə uyğun olaraq, Cəmiyyətin üzərinə düşən vəzifələrin yerinə yetirilməsi və onun hüquqlarının həyata keçirilməsi, habelə səmərəli fəaliyyət göstərməsi üçün zəruri tədbirlər görür;

7.3.3. Cəmiyyətin əməkdaşlarının əmək funksiyasının həcmini müəyyən edir, vəzifə təlimatlarını təsdiq edir, onlarla əmək müqavilələri bağlayır, şərtlərini dəyişdirir və əmək qanunvericiliyi ilə müəyyən edilmiş qaydada və əsaslarla əmək müqavilələrini ləğv edir;

7.3.4. Dəyəri 100.000.000 (yüz milyon) manatdan və ya onun xarici valyutada ekvivalentindən artıq məbləğdə olmayan əqdləri, eləcə də bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində aidiyyəti üzrə Şura və Ümumi Yığıncaq tərəfindən bağlanılması barədə qərar qəbul edilmiş əqdləri imzalayır;

7.3.5. Dəyəri 100.000.000 (yüz milyon) manatdan və ya onun xarici valyutada ekvivalentindən artıq məbləğdə olan əqdlərin (Cəmiyyətin xalis aktivlərinin 25 faizindən artıq olan (xüsusi əhəmiyyətli əqdlər), eləcə də aidiyyəti şəxslərlə bağlanması nəzərdə tutulan əqdlər istisna olmaqla) bağlanması barədə qərar qəbul edilməsi üçün Şuraya müraciət edir;

7.3.6. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə əqdin bağlanılması ilə bağlı Ümumi Yığıncaq tərəfindən qərar qəbul edilməsi üçün Şuraya müraciət edir;

7.3.7. özünün yaratdığı komissiyaların, məşvərətçi komitələrin və işçi qrupların əsasnamələrini təsdiq edir, habelə Cəmiyyətin idarə, filial və nümayəndəliklərinin əsasnamələrinin, habelə təsisçisi (iştirakçısı) olduğu hüquqi şəxslərin nizamnamələrinin təsdiq edilməsi üçün Şuraya müraciət edir;

7.3.8. bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla, Cəmiyyətin işçilərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərarlar qəbul edir;

7.3.9. Cəmiyyətin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

7.3.10. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq, bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Cəmiyyətin adından qərarlar verir, əməliyyatlar aparır, etibarnamələr verir, əqdlər bağlayır və onların yerinə yetirilməsini təmin edir;

7.3.11. dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə münasibətdə Cəmiyyəti təmsil edir;

77.3.12. Cəmiyyətin əmlakından bu Nizamnamə ilə müəyyən edilmiş məqsədlərə uyğun istifadə edir;

7.3.13. Cəmiyyətin aparatının struktur bölmələri, filialları, nümayəndəlikləri və təsisçisi (iştirakçısı) olduğu hüquqi şəxslərin səmərəli fəaliyyət göstərməsini, onlara nəzarətin həyata keçirilməsini müvafiq olaraq təmin və təşkil edir, fəaliyyətlərini

əlaqələndirir və qarşılıqlı münasibətlərini formalaşdırır, Cəmiyyətin sədr müavinləri və digər vəzifəli şəxslərinin arasında vəzifə və iş bölgüsünü aparır;

7.3.14. Cəmiyyətin aparatının struktur bölmə (daxili audit bölməsi istisna olmaqla) rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad edir;

7.3.15. Cəmiyyətin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

7.4. Cəmiyyətin sədri müvəqqəti olmadıqda onun səlahiyyətlərini müvafiq əmrlə sədr müavinlərindən biri icra edir.

7.5. Cəmiyyətin İdarə Heyətinin üzvləri adlarına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidir, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

7.6. Cəmiyyətin sədri ayda 1 (bir) dəfədən az olmayaraq İdarə Heyətinin iclaslarını çağırır və iclaslara sədrlik edir. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvləri və Şura çıxış edir. İdarə Heyətinin iclasları əyani (onun üzvlərinin bilavasitə iştirakı ilə), distant (informasiya texnologiyalarından istifadə etməklə), habelə qarışıq və ya qiyabi (iclas keçirilmədən müvafiq olaraq qərar vermə (qərarı imzalama) formada keçirilə bilər. İdarə Heyətinin iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında hər üzvün bir səsi olmaqla, qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir. İdarə Heyətində səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

7.7. İdarə Heyətinin iclaslarının nəticələri Cəmiyyətin sədri və iclas katibi tərəfindən imzalanmaqla protokolla rəsmiləşdirilir.

## 8. Cəmiyyətin işinin planlaşdırılması, mühasibat uçotu, maliyyə və statistik hesabatların aparılması

8.1. Cəmiyyət mühasibat və statistik uçotu "Mühasibat uçotu haqqında" və "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq aparır. Cəmiyyət maliyyə hesabatlarını Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq tərtib, təqdim və dərc edir.

8.2. Cəmiyyətin birinci maliyyə ili onun dövlət qeydiyyatına alındığı vaxtdan başlayır və həmin ilin dekabrın 31-də başa çatır. Növbəti maliyyə ili isə yanvarın 1-dən başlayır və dekabrın 31-də başa çatır.

## 9. Audit və maliyyə nəzarəti

9.1. Cəmiyyətin, o cümlədən onun struktur bölmələrinin fəaliyyətinə nəzarətin təmin edilməsi məqsədilə daxili və kənar audit həyata keçirilir.

9.2. Daxili və kənar audit normativ hüquqi aktların və bu Nizamnamə ilə müəyyən olunmuş qaydada növbəli (plana əsasən) və ya növbədənkənar qaydada keçirilə bilər.

9.3. Cəmiyyətin illik maliyyə hesabatının düzgünlüyünü yoxlamaq üçün ildə bir dəfədən az olmamaq şərtilə kənar auditor cəlb edilir.

9.4. Ümumi Yığıncaq Cəmiyyətin idarə, filial və nümayəndəliklərinin, təsisçisi (iştirakçısı) olduğu hüquqi şəxslərin, o cümlədən təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat və digər istiqamətlər üzrə fəaliyyətinin yoxlanılmasını təmin edir.

9.5. Cəmiyyətdə daxili audit siyasətinin və strategiyasının hazırlanması, həyata keçirilməsi və auditor nəzarətinin təşkili üçün Şura tərəfindən audit komitəsi yaradılır. Audit komitəsinin əsasnaməsinin Ümumi Yığıncaqla razılaşdırmaqla təsdiq

edilməsi, rəhbərinin və üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi Şura tərəfindən həyata keçirilir.

9.6. Cəmiyyətin İdarə Heyətinin üzvləri audit komitəsinin üzvü ola bilməzlər. Şuranın üzvləri audit komitəsinin üzvü ola bilərlər.

9.7. Cəmiyyətin fəaliyyətinin daxili auditi audit komitəsinin təşəbbüsü əsasında Şuranın qərarı ilə həyata keçirilir.

9.8. Audit komitəsinin tələbi ilə Cəmiyyətin bütün orqanları və vəzifəli şəxsləri Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyəti ilə əlaqədar olan sənədləri təqdim etməlidirlər.

## 10. Sığortalanma

Cəmiyyətin əmlakının, istehsal, maliyyə və digər risklərinin sığortalanması, Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə icbari sığorta nəzərdə tutulmadıqda, Cəmiyyət sədri tərəfindən Ümumi Yığıncaqla razılaşdırılmaqla həyata keçirilir.

## 11. Cəmiyyətin yenidən təşkili və ya ləğvi

Cəmiyyətin yenidən təşkili və ya ləğvi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

AZƏRBAYCAN RESPUBLİKASI

VERGİLƏR NAZİRLİYİ

KOMMERSİYA HÜQUQİ ŞƏXSİNİN
DÖVLƏT QEYDİYYATI HAQQINDA

# ŞƏHADƏTNAMƏ

**QEYDİYYAT №(VÖEN)** **9900007721**

*Qeydiyyat orqanının adı* Bakı şəhəri Vergilər Departamentinin Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi

*Qurumun adı* **"AZƏRBAYCAN DƏMİR YOLLARI" QAPALI SƏHMDAR CƏMİYYƏTİ**

*Ünvanı* AZ1010 BAKI ŞƏHƏRİ NƏSİMİ RAYONU DİLARƏ ƏLİYEVA ev.230

*Qeydiyyata alındığı tarix* 08.08.1995

***Hüquqi şəxs Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 30.04.2007-ci il tarixi Fərmanına əsasən 'bir pəncərə' prinsipi ilə dövlət qeydiyyatına alınmışdır.***

**Alimova Nigar Əyyub qızı** N. Alimova

Qeydiyyat orqanının rəhbəri 17.03.2010